**Qaradağ Rayon Statistika Şöbəsinin 20 oktyabr Ümumdünya Statistika günü və Azərbaycan Respublikasında rəsmi statistikanın yaradılmasının 95-ci il dönümünə həsr olunmuş tədbir keçirilmişdir.**



Bakı şəhəri Qaradağ rayonunun Lökbatan qəsəbəsində H. Əliyev mərkəzində 15 oktyabr 2015-ci il tarixində Qaradağ rayon Statistika şöbəsinin 20 oktyabr "Ümumdünya Statistika günü" və Azərbaycan Respublikasında rəsmi Statistikanın yaradılmasının 95-ci il dönümünə həsr olunan tədbir keçirildi. Tədbirdə Qaradağ rayon İcra Hakimiyyəti Başçısının birinci müavini cənab Emil Abbasov və Sosial İqtisad şöbəsinin müdiri və əməkdaşları, Bakı şəhər Statistika idarəsinin rəis müavini Əhməd Vəkilov, Qaradağ rayon YAP-nın sədr müavini Hicrət Qaradağlı, müəssisə və təşkilatların idarə rəhbərləri, işçiləri və Qaradağ rayon Statistika şöbəsinin bütün əməkdaşları iştirak edirdilər.

Tədbiri giriş nitqi ilə rayon İcra Hakimiyyəti Başçısnın birinci müavini cənab Emil Abbasov açdı, nitqində statistikanın əhəmiyyətindən danışdı, Statistika şöbəsinin əməkdaşlarının işindən razı olduqlarını bir daha vurğuladı və Ümumdünya Statistika günü münasibətilə rayon İcra Hakimiyyətinin Başçısı cənab Süleyman Mikayılovun və onun kollektivi adından Dövlət Statistika Komitəsinin sədri cənab Tahir Budaqovu və onun simasında bütün kollektivini o cümlədən Qaradağ rayon Statistika şöbəsinin əməkdaşlarını təbrik etdi və fəaliyyətlərində müvəffəqiyyətlər arzuladı.

Statistika sistemində səmərəli fəaliyyətinə və 20 oktyabr Ümumdünya Statistika günü münasibətilə Qaradağ Rayon Statistika Şöbəsinin üç əməkdaşı Qaradağ rayon İcra Hakimiyyəti Başçısının fəxri fərmanı və xatirə hədiyyələri ilə təltif edildi.

Bakı Şəhər Statistika İdarəsinin rəis müavini öz məruzəsində Qaradağ Rayon Statistika Şöbəsinin fəaliyyətindən danışdı və bu çətin işdə daha da məsuliyyətli olmağı tövsiyə etdi, bayram münasibətilə öz səmimi arzularını bildirdi.

Qaradağ RSŞ-nin rəisi Şəhla Fərzəliyeva "Statistikanın əhəmiyyəti və 20 oktyabr – "Ümumdünya Statistika günüdür" mövzusu ilə çıxış etdi və iclas iştirakçılarına Azərbaycan Respublikasında Statistikanın rolu və əhəmiyyəti haqqında məlumat verdi. Çıxışının sonunda Dövlət Statistika Komitəsinin sədri Cənab Tahir Budaqovu və onun simasında bütün əməkdaşlarını, rayon Statistika şöbəsinin kollektivi adından təbrik etdi.

Qaradağ Rayon Statistika Şöbəsinin rəis müavini Sona Məmmədova "Statistikanın tarixi və prinsipləri" mövzusunda geniş məruzə ilə çıxış etdi.

Tədbirdə iştirak edən qonaqlardan 7 saylı Bakı Peşə məktəbinin müdiri, Qaradağ rayon YAP-nın sədr müavini Hicrət Qaradağlı və Bakı Ağırlaşdırıcılar ASC-nin baş mühasibi Xanımana Novruzova çıxışlarında müəssisə və idarələrdə Statistik hesabatlar vasitəsilə sosial-iqtisadi göstəricilərin əldə olunmasının əhəmiyyətindən danışdılar. Rayon Statistika şöbəsinin əməkdaşları tərəfindən mütəmadi olaraq statistik hesabatlarla əlaqədar müəyyən köməklik göstərilməsinə və şöbə işçilərinin işlərində daha dəqiq olmalarına görə öz minnətdarlıqlarını bildirdilər və bayram münasibətilə səmimi təbriklərini çatdırdılar.

Tədbirdə "İki Sahil" – Dövlət qəzetinin müxbiri jurnalist Orxan İsrafilov iştirak edirdi. O tədbirdəki çıxışlara əsaslanaraq məqalə tərtib edib adı çəkilən qəzetdə dərc etdirdi.







